**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU**

*Əlyazması hüqüqündə*

**TOĞRUL RAFAEL oğlu MURADOV**

# APPROKSİMASİYANIN BƏZİ QARIŞIQ MƏSƏLƏLƏRİ VƏ ÜMUMİLƏŞMİŞ LEBEQ FƏZALARINDA BAZİSLƏR

1202.01 –Analiz və funksional analiz

Riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

Bakı -2018

Dissertasiya işi **AMEA Riyaziyyat və Mexanika İnstitutunun "Qeyri-harmonik analiz"** şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** AMEA-nın müxbir üzvü, prof. **Bilal Bilalov**

**Rəsmi opponentlər:**

- fizika-riyaziyyat elmləri doktoru, prof. **Nizaməddin İsgəndərov** (Bakı Dövlət Universiteti);
- fizika-riyaziyyat elmləri doktoru, prof. **Həmidulla Aslanov** (AMEA Riyaziyyat və Mexanika İnstitutu);
- fizika-riyaziyyat elmləri doktoru, prof. **Heybətqulu Mustafayev** (Yüzüncü İl Universiteti, Türkiyə).

**Aparıcı təşkilat:**
**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin** "Ümumi və tətbiqi riyaziyyat" kafedrası**.**

Dissertasiyanın müdafiəsi 06 iyul 2018-ci il saat $14^{00}$-da Azərbaycan MEA Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.111 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ 1141, Bakı şəhəri, B.Vahabzadə küç. 9.

Avtoreferat 04 iyun 2018-ci il tarixində buraxılıb.

**D.01.111 Dissertasiya Şurasının elmi katibi** **dos. Tamilla Həsənova**

## İŞİN ÜMUMİ XARAKTERSİTİKASI

**Mövzunun aktuallığı.** Bazislər nəzəriyyəsi approksimasiyanın nisbətən müasir və müstəqil istiqamətidir. Onun əsasını xətti topoloji fəzanın ixtiyari elementinin verilmiş sistem üzrə (yeganə şəkildə) ayrılış təşkil edir. Başqa sözlə, xətti əməliyyatlar və topologiyanın köməyi ilə verilmiş sistem fəzanı doğurur. Ayrılışın əsas əlaməti ayrılışın əmsallarını müəyyən şəkildə tapmaqdan ibarətdir.

Approksimasiya nəzəriyyəsində verilmiş sistemin bazislik məsələsi çox vacibdir və riyaziyyat, mexanika və fizikanın bir çox sahələrinə tətbiqlə əlaqədar olaraq, böyük elmi maraq kəsb edir. Verilmiş xətti operatorun məxsusi və qoşma elementindən ibarət sistemin uyğun xətti topoloji fəzada bazisliyi operator tənliklərin həllində məxsusi rol oynayır.

Eyni bir fəzanın bütün bazisləri bu fəza ilə münasibətdə eynihüquqludur, belə ki, onların hamısı müəyyən mənada verilən fəzanı doğurur. Digər tərəfdən onlar əmsallar fəzaları ilə fərqlənə bilirlər. Baxılan fəzanın hər bir bazisinə müəyyən əmsallar fəzası birqiymətli olaraq uyğun gəlir.

Son zamanlar (keçən əsrin sonlarından başlayaraq) mexanika və riyazi fizikanın konkret məsələlərinə tətbiqlə əlaqədar olaraq, $p(\cdot)$ dəyişən dərəcəli $L_{p(\cdot)}$ Lebeq və $W_{p(\cdot)}^{k}$ Sobolev fəzalarında müxtəlif məsələlərin öyrənilməsinə olan maraq xeyli artmışdır.

Dissertasiya işi ümumilikdə ümumiləşmiş Lebeq və Sobolev fəzalarında bazsilik məsələlərinə həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, oxşar fəzalarda approksimasiya nəzəriyyəsinin məsələləri kifayət qədər yaxşı öyrənilməmişdir. Bir çox klassik nəticələrin analoqlarını almaq istəyi müəyyən çətinliklərlə qarşılaşır. Ona görə də hesab edirik ki, dissertasiya işinin mövzusu çox aktualdır və xüsusi elmi maraq kəsb edir.

Qeyd etmək lazımdır ki, Bessel və Hilbert sistemləri Riss bazisi anlayışları N.K.bari tərəfindən daxil edilmişdir. Abstrakt Banax fəzası halına bu anlayışlar B.T.Bilalov tərəfindən ümumiləşdirilmişdir. Həyəcanlanmış triqonometrik sistemlərin Lebeq fəzalarında bazislik xassələri N.Levinson, Peli-Vinerin işlərində öyrənilməyə başlanmışdır. Bu istiqamətdə mühüm nəticələr M.N.Kadetsin, A.M.Sedletskinin, Y.İ.Moiseyevin, B.T.Bilalovun və digərlərinin işlərində alınmışdır. Klassik eksponent sistemin və onun həyəcanlanmalarının ümumiləşmiş Lebeq fəzalarında bazislik xassələri N.İ.Şarapudinovun və B.T.Bilalovun işlərində öyrənilməyə başlanmışdır. Yu.A.kazminin işlərində tam olmayan indeksli kosinus və sinus sistemlərinin Riss bazisliyi öyrənilir. Həmçinin, qeyd edək ki, həyəcanalnmış triqonometrik sistemlərin bazislik xassələrinin analitik funksiyalar üçün sərhəd məsələləri metodları ilə öyrənilməsi ideyası A.V.Bitsadzeyə məxsusdur. Sonralar bu ideya S.M.Ponomaryovun, Y.İ.Moiseyevin və B.T.Bilalovun işlərində əhəmiyyətli dərəcədə inkişaf etdirilmişdir. Diferensial operatorların spektral nəzəriyyəsi nöqteyi-nəzərindən həyəcanlanmış triqonometrik sistemlər A.A.Şkalikovun işlərində meydana gəlmişdir. Bu istiqamətdə V.A.Ditkin, K.Şaydukov, A.Q.Tumarkin, R.P.Faynerman, D.J.Nyuman, C.J.Tranter, S.Martin, B.Nobl, J.K.Vaytman kimi müəlliflərin işlərini də qeyd etmək lazımdır. Bu sahədən olan tədqiqatlara Yu.A.Kazminin, A.N.Barmenkovun, V.A.Tkaçenkonun, Yu.İ.Lyubarskinin, B.T.Bilalovun işlərini aid etmək olar.

**İşin məqsədi.** Dəyişən dərəcəli çəkili Lebeq fəzalarında müxtəlif eksponensial sistemlərin bazislik xassələrinin (tamlıq, minimallıq, bazislik) öyrənilməsidir. Buna görə əvvəlcə uyğun çəkili ümumiləşmiş Hardi sinifləri təyin olunur və bu siniflərdə analitik funksiyalar nəzəriyyəsinin Riman məsələsi öyrənilir.

**Elmi yenilik.** Dissertasiya işində aşağıdakı əsas nəticələr alınmışdır:

-$L_{p(\cdot)}$ fəzasının alt fəzaları olaraq $H^{+}_{p(\cdot)}$ və ${}_{m}H^{-}_{p(\cdot)}$ Hardi fəzalarına baxılır, bu fəzalarda eksponent sisteminin müəyyən hissələrinin bazisliyi öyrənilir;

-isbat olunmuşdur ki, əgər $\left\{A(t)e^{\mathrm{int}};B(t)e^{-i(n+1)t}\right\}_{n=0}^{\infty}$ ikiqat eksponent sistemi $p(\cdot)$ dəyişən dərəcəli $L_{p(\cdot)}(-\pi,\pi)$ fəzasında bazis təşkil edirsə, onda o, bu fəzada $\left\{e^{\mathrm{int}}\right\}_{n\in Z}$ klassik eksponent sisteminə izomorfdur.;

-ilk dəfə olaraq $L_{p(\cdot)}$ ümimiləşmiş Lebeq fəzasında həyəcanlanmış eksponent sisteminin bazisliyi, eləcə də həyəcan müəyyən asimptotikaya malik olduqda ümumiləşmiş çəkili Lebeq fəzasında vahidə malik həyəcanlanmış eksponent sisteminin bazisliyi öyrənilmişdir;

-ümumiləşmiş Hardi siniflərində hissə-hissə kəsilməz əmsala malik Riman sərhəd məsələsi öyrənilmiş və bu nəticələrdən istifadə edərək $L_{p(\cdot)}$ fəzasında hissə-hissə kəsilməz fazaya malik eksponent sisteminin bazisliyi isbat olunmuşdur;

-Banax fəzalarında operator əmsallı ikiqat sistemin bazisliyinə baxılmış, bu sistemin bazisliyi və uyğun operator tənliyin həllolunanlığı arasında əlaqə qurulmuşdur;

-ilk dəfə olaraq abstrakt ikiqat sistemin bazisliyi üçün zəruri şərt alınmışdır və məlum eksponent sistemlərə tətbiq olunmuşdur;

-Hilbert fəzalarının Hilbert tenzor hasilinə baxılmış, Hilbert tenzor hasili ilə təyin olunan bixətti inikasın doğurduğu $t$-ayrılış anlayışı daxil edilmiş, Hilbert fəzasının ixtiyari elementinin sonlu sayda element atıldıqdan sonra, alınmış sistem üzrə $t$-ayrılışı haqqında teorem isbat olunmuşdur;

-müəyyən xassələrə malik xətti metrik fəzaya baxılır, cırlaşmayan sistem anlayışı daxil edilir, belə sistemlərin kanonik bazisə malik tam metrik əmsallar fəzasına malik olması isbat olunur, əmsal operatoru dilində bazsilik meyarı verilmişdir;

-$J$-örtük, $J$-tamlıq, $J$-minimallıq və $J$-bazis, $J$-əmsallar fəzası və bu fəzada $J$-kanonik sistem kimi approksimativ anlayışlar daxil edilmiş, $J$-əmsal operatoru dilində operatorlar ailəsinin $J$-bazislik kriteriyası əldə edilmişdir;

- $L_{p(\cdot)}$ fəzalarında ikiqat sistem və uyğun birqat sistemlərin bazisilik xassələri arasında əlaqə qurulmuşdur;

-ilk dəfə olaraq klassik Peli-Viner teoreminin kəsilməz analoqu alınmışdır;

- $p(\cdot)$ dəyişən dərəcəli $W^1_{p(\cdot)}$ Sobolev fəzasında bazisin qurulması üçün bir metod təklif olunmuşdur;

-Banax fəzalarında multiplikator mənada yaxın sistemlərin bazisliyi isbat edilmişdir və $L_{p(\cdot)}$ fəzasında həyəcanlanmış eksponent sisteminə tətbiq olunmuşdur. Multiplikator dilində eksponent, kosinus və sinus sistemləri üçün «$\frac{1}{4}-$Kadets» teormeinin $p(\cdot)$-analoqu alınmışdır;

-Şturm-Liuvill operatoru üçün spektral parametrə malik Koşi məsələsinə baxılmışdır. İsbat olunmuşdur ki, spektral parametr üçün qiymətlər ardıcıllığını elə seçmək olar ki, uyğun həllər sistemi dəyişən dərəcəli Lebeq fəzasında klassik triqonometrik sistemə izomorf bazis təşkil etsin.

**Tədqiqat metodikası**. İşdə həqiqi və kompleks dəyişənli funksiyalar nəzəriyyəsinin, diferensial tənliklər nəzəriyyəsi, funksional analizin, xüsusi halda Hilbert və Banax fəzalarında xətti operatorlar nəzəriyyəsinin, bazislər nəzəriyyəsi və approksimasiya nəzəriyyəsinin metodları tətbiq olunur.

**Nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın nəticələri nəzəri xarakter daşıyır. Onlardan diferensial operatorların spektral nəzəriyyəsində, riyazi fizika və mexanikanın müxtəlif məsələlərinin həlli zamanı Furye metodunun əsaslandırılmasında istifadə oluna bilər. Nəticələrdən həmçinin approksimasiya nəzəriyyəsində istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiyanın əsas nəticələri AMEA RMİ-nin ümuminstitut seminarında, «Qeyri-harmonik analiz» (AMEA-nın müxbir üzvü, prof. B.T.Bilalov), «Funksional analiz» (prof. H.İ.Aslanov), «Funksiyalar nəzəriyyəsi» (AMEA-nın professoru, r.e.d. V.E.İsmayılov) şöbələrinin seminarlarında, AMEA-nın müxbir üzvü, prof. İ.T.Məmmədovun 50 illiyinə həsr olunmuş riyaziyyat və mexanika adlı beynəlxalq konfransında (Bakı 2005), AMEA-nın müxbir üzvü, prof. B.A.İsgəndərovun 70 illiyinə həsr olunmuş riyaziyyat və mexanika adlı beynəlxalq konfransında (Bakı 2006), akademik A.Hacıyevin 70 illiyinə həsr olunmuş riyaziyyat və mexanika adlı beynəlxalq konfransında (Bakı 2007), akademik Z.İ.Xəlilovun 100-illik yubileyinə həsr olunmuş «Funksional analiz və onun tətbiqləri» beynəlxalq konfransda (Bakı, 2011), L.DF.Kudryavtsevin 85 illiyinə həsr olunmuş "Funksional **, diferensial operatorlar, riyazi təhsilin ümumi topoloji problemləri" beynəlxalq konfransda (Moskva 2008), MADEA-7 beynəlxalq konfransda (Bakı 2015).

**Nəşrləri.** Dissertasiya işinin əsas nəticələri, avtoreferatın sonunda siyahısı verilmiş, 39 işdə nəşr edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, beş fəsil və 184 adda ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 258 səhifədir.

## DİSSERTASİYANIN MƏZMUNU

Dissertasiya giriş, beş fəsil və ədəbiyyat siyahısından ibarətdir.

Girişdə dissertasiya işinin aktuallığı əsaslandırılmış, məzmunu ilə bağlı nəticələrin qısa xülasəsi verilmiş və əsas nəticələr şərh olunmuşdur.

**Birinci fəsil** bir çox münasibətlərə görə dissertasiyanın sonrakı nəticələrinin alınmasında və ifadə olunmasında çox mühüm rol oynayır.

Burada dissertasiyada istifadə olunacaq əsas işarələmələr, anlayışlar və faktlar təsvir olunmuşdur. Oxunaqlı olması və şərhin tamlığı məqsədilə dəyişən dərəcəli çəkili Lebeq fəzalarında klassik eksponent sisteminin bazisliyinin isbatı tam verilmişdir. Dəyişən dərəcəli Lebeq fəzaları nəzəriyyəsindən də məlumatlar daxil edilmişdir. Ümumiləşmiş çəkili Hardi sinifləri təyin edilmiş və bu siniflərdə eksponent sisteminin hissəsinin bazisliyi isbat olunmuşdur. Kompleks əmsallı ikiqat eksponent sisteminə baxılmış və əmsal üzərinə müəyyən şərtlər qoymaqla isbat olunmuşdur ki, bu sistem ümumiləşmiş Lebeq fəzalarında bazisdirsə, onda o, bu fəzada klassik eksponent sisteminə izomorfdur. Bu fəslin nəticələrindən dissertasiyanın növbəti hissələrində əhəmiyyətli dərəcədə istifadə olunur.

**1.1-də** Şauder bazisi nəzəriyyəsindən zəruri anlayış və faktlar daxil edilir. Aşağıdakı standart işarələmələri qəbul edək:

$R-$ həqiqi ədədlər; $C-$ kompleks ədədlər; $N-$ natural ədədlər; $Z-$ tam ədədlər; $Z_+ = \{0\} \cup N$ ;

$B-$ fəza – Banax fəza; $H-$ fəza – Hilbert fəza;

$X^*-$ $X$ fəzasına qoşma fəza; $T^*-$ $T$ operatoruna qoşma operatordur;

$L[M]-$ uyğun fəzada $M$ çoxluğunun xətti örtüyüdür; $\overline{M}-$ uyğun fəzada $M$ çoxluğunun qapanmasıdır;

$\delta_{ij}$ $-$ Kroneker simvoludur: $\delta_{ij} = \begin{cases} 1, & i = j, \\ 0, & i \neq j; \end{cases}$

$\exists!-$ yeganə var; $\Rightarrow -$ alınır; $\Leftrightarrow -$ yalnız və yalnız onda.

Tutaq ki, $X$ müəyyən $B-$ fəza və $M \subset X$ . $L(X;Y)-$ $X$ -dan $Y$ -yə təsir edən məhdud operatorların $B$ -fəzasıdır; $L(X;X) \equiv L(X)$.

***Tərif 1****. Tutaq ki, $\{x_n\}_{n\in N} \subset X$ müəyyən sistemdir. Əgər $\overline{L[\{x_n\}_{n\in N}]} \equiv X$ , onda bu sistem $X$ fəzasında tam sistem adlanır.*

Aşağıdakı hökm məlumdur.

***Hökm 1.*** *$\{x_n\}_{n\in N}$ sistemi $X$ fəzasında tamdır $\Leftrightarrow$ $x^*(x_n) = 0, \forall n \in N$, olmasından $x^* = 0$ alınır.*

***Tərif 2****. Əgər*

$$x_n^*(x_m) = \begin{cases} \neq 0, & n = m, \\ 0, & n \neq m, \quad \forall n, m \in N, \end{cases}$$

*onda* $\{x_n\}_{n\in N}\subset X$ *və* $\{x_n^*\}_{n\in N}\subset X^*$ *sistemləri biortoqonal sistemlər adlanır.* $x_n^*(x_m)=\delta_{nm}$, $\forall n,m\in N$, *olduqda onlar biortonormal sistemlər adlanır.*

***Tərif 3***. $\forall r\in N$ *üçün* $x_r\notin \overline{L[\{x_n\}_{n\neq r}]}$, *olduqda* $\{x_n\}_{n\in N}\subset X$ *sistemi* $X$ *fəzasında minimal sistem adlanır.*

Aşağıdakı hökm doğrudur

***Hökm 2.*** $\{x_n\}_{n\in N}\subset X$ *sistemi* $X$ *fəzasında minimaldır* $\Leftrightarrow$ *bu sistemə biortoqonal sistem var.*

***Tərif 4***. *Əgər* $\forall x\in X$, $\exists!\{\lambda_n\}_{n\in N}\subset C$ *üçün:*

$$x=\sum_{n=1}^{\infty}\lambda_n x_n .$$

*onda* $\{x_n\}_{n\in N}\subset X$ *sistemi* $X$ $B$*-fəzasında bazis adlanır.*

Aşağıdakı bazislik kriteriyası doğrudur.

***Bazilik kriteriyası.*** $\{x_n\}_{n\in N}\subset X$ *sistemi* $X$ *fəzasında bazis təşkil edir yalnız və yalnız o zaman ki, aşağıdakı şərtlər ödənsin:*

*1.* $\{x_n\}_{n\in N}$ *sistemi* $X$*-da tamdır;*

*2.* $\{x_n\}_{n\in N}$ $X$*-da minimaldır və tutaq ki,* $\{x_n^*\}_{n\in N}\subset X^*$ *ona qoşma sistemdir;*

*3.* $\{P_n\}_{n\in N}\subset L(X)$ *proyektorları müntəzəm məhduddur, harada ki*

$$P_m x=\sum_{n=1}^{m}x_n^*(x)x_n .$$

İkiqat bazis anlayışından istifadə edəcəyik. Tutaq ki, $X$ $B$-fəza və $\{x_n^+;x_n^-\}_{n\in N}\subset X$ müəyyən ikiqat sistemdir.

***Tərif 5.*** *Əgər* $\forall x\in X$, $\exists!\{\lambda_n^+;\lambda_n^-\}_{n\in N}\subset C$ *:*

$$x=\sum_{n=1}^{\infty}\lambda_n^+x_n^+ +\sum_{n=1}^{\infty}\lambda_n^-x_n^- ,$$

*onda* $\{x_n^+;x_n^-\}_{n\in N}$ *sistemi* $X$ *fəzasında ikiqat bazis adlanır.*

***Tərif 6.*** *Əgər*

$$\sum_{n=1}^{\infty}a_n x_n=0\Rightarrow a_n=0,\ \forall n\in N,$$

*onda* $\{x_n\}_{n\in N} \subset X$ *sistemi* $X$ $B$*- fəzasında* $\omega$*-xətti asılı olmayan sistem adlanır.*

Aşağıdakı lemma doğrudur.

***Lemma 1.*** *Tutaq ki,* $X$ $\{x_n\}_{n\in N}$ *bazisinə malik* $B$*-fəzadır və* $F: X \to X$ *Fredholm operatorudur. Onda* $X$ *fəzasında* $\{y_n = Fx_n\}_{n\in N}$ sistemi üçün *aşağıdakı xassələr ekvivalentdir:*

*1)* $\{y_n\}_{n\in N}$ *sistemi tamdır;*

*2)* $\{y_n\}_{n\in N}$ *sistemi minimaldır;*

*3)* $\{y_n\}_{n\in N}$ $\omega$*-xətti asılı deyil;*

*4)* $\{y_n\}_{n\in N}$ $\{x_n\}_{n\in N}$ *sisteminə izomorf bazis təşkil edir.*

Bu lemmadan bilavasitə aşağıdakı lemma alınır.

***Lemma 2.*** *Tutaq ki,* $\{x_n\}_{n\in N}$ *ardıcıllığı müəyyən* $B$ *Banax fəzasında bazis təşkil edir. Onda əgər* $M = card\{n : x_n \neq y_n\} < +\infty$*, harada ki,* $\{y_n\}-$*müəyyən ardıcıllıqdır, aşağıdakı hökmlər ekvivalentdir:*

*1.* $\{y_n\}_{n\in N}$ $B$ *fəzasında* $\{x_n\}_{n\in N}$ *sisteminə izomorf bazis təşkil edir;*

*2.* $\{y_n\}_{n\in N}$ *sistemi* $B$ *fəzasında tamdır;*

*3.* $\{y_n\}_{n\in N}$ *sistemi* $B$ *fəzasında minimaldır;*

*4.* $\{y_n\}_{n\in N}$ *sistemi* $B$ *fəzasında* $\omega -$*xətti asılı deyil.*

Həmçinin aşağıdakı anlayışlardan istifadə edəcəyik.

***Tərif 7.*** *Əgər* $\sum_n \|x_n - y_n\|^p < +\infty$*, onda* $\{x_n\}_{n\in N}$ *və* $\{y_n\}_{n\in N}$ *sistemləri* $\|\cdot\|$ *normasına malik* $X$ $B$*-fəzasında* $p$*-yaxın sistem adlanır.*

***Tərif 8.*** *Əgər* $\forall x \in X$ *üçün* $\{x_n^*(x)\}_{n\in N} \in l_p$, onda *,* $X$ $B$*- fəzasında* $\{x_n^*\}_{n\in N} \subset X^*$ *qoşmasına malik minimal* $\{x_n\}_{n\in N} \subset X$ *sistemi* $p$*-sistem adlanır, burada* $l_p$ $\left\|\{a_n\}_{n\in N}\right\|_{l_p} = \left(\sum_n |a_n|^p\right)^{\frac{1}{p}}$ *normasına malik adi* $\{a_n\}_{n\in N}$ *skalyar ardıcıllıqlar fəzasıdır.*

*Bazis halında belə sistemi* $p$*-bazis adlandıracağıq.*

Bu anlayışlar haqında daha ətraflı I.Singer, R.Young və B.T.Bilalov, S.H.Vəliyevin monoqrafiyalarından tanış olmaq olar.

Dəyişən dərəcəli Lebeq fəzaları nəzəriyyəsindən bəzi zəruri anlayış və faktları daxil edək.

Tutaq ki, $E \subset R$ Lebeq mənada ölçülən çoxluqdur. $P(E)$ ilə bütün (Lebeq mənada) ölçülən $p : E \to [1, \infty)$ funksiyalar ailəsini işarə edəcəyik. $p \in P(E)$ götürək və fərz edək

$$p^{+} = \sup_{E_0} vrai\, p(x)\ ;\ \ p^{-} = \inf_{E_0} vrai\, p(x).$$

$C$ meydanı üzərində $E$-də Lebeq mənada ölçülən bütün funksiyaların xətti fəzasını $L_0(E)$ ilə işarə edək və tutaq ki

$$I_p(f) = \int_{E|E_\infty} |f(t)|^{p(t)} dt + \sup_{E_\infty} vrai |f(t)|.$$

Qəbul edək

$$\|f\|_{L_{p(\cdot)}} = \inf\left\{\lambda > 0 : I_p\left(\frac{f}{\lambda}\right) \le 1\right\}.$$

Qarşıda fərz edəcəyik ki, $p \in L_{+}^{\infty}(E)$, daha doğrusu, $1 \le p^{-} = \inf_{E} vrai\, p(x) \le p^{+} = \sup_{E} vrai\, p(x) < +\infty$.

Aşağıdakı vacib nəticə həmçinin doğrudur.

***Teorem 1.*** *Əgər $E$ açıq çoxluqdursa, onda $C_0^{\infty}(E)$ $L^{p(\cdot)}(E)$-da sıxdır.*

$L^{p(\cdot)}$ fəzalarında bazislik məsələlərində tez-tez aşağıdakı teoremlərdən istifadə olunur.

***Teorem 2.*** *Əgər $p^{-} > 1, p^{+} < +\infty$, onda $L^{p(\cdot)}(E)$ refleksiv fəzadır.*

Aşağıdakı daxilolma doğrudur.

***Teorem 3.*** *Tutaq ki, $p_1, p_2 \in L_0(E)$. Onda*

$$L^{p_2(\cdot)}(E) \subset L^{p_1(\cdot)}(E) \Leftrightarrow p_1(x) \le p_2(x),\ s.h.y.\ x \in E,$$

*Bu halda daxilolma kəsilməzdir.*

Fərz edək

$$q(x) : \frac{1}{p(x)} + \frac{1}{q(x)} = 1.$$

Aşağıdakı teorem doğrudur.

***Teorem 4.*** $\left(L^{p(\cdot)}(E)\right)^* = L^{q(\cdot)}(E)$.

**1.2**

$$e_n(t) \equiv e^{int}, \qquad n = 0; \pm 1; \ldots, \tag{1}$$

sisteminin ümumiləşmiş çəkili $L_{p(\cdot),\rho}$ Lebeq fəzalarında bazislik məsələlərinə həsr olunmuşdur. Biz bu nəticələrin yeniliyini iddia etmirik. Şərhin tamlığı üçün xüsusi elmi maraq doğuran sərbəst tədqiqat sxemi təklif edirik.

Çəkili $L_{p(\cdot),\rho(\cdot)}$ fəzasına baxaq. Tutaq ki, $\rho : [-\pi, \pi] \to [0, +\infty)$ ölçülən funksiyadır. $L_{p(\cdot),\rho(\cdot)}$ fəzası ilə adətən $[-\pi, \pi]$-da ölçülən $f(x)$ funksiyalarının sonlu

$$\|f\|_{p(\cdot),\rho(\cdot)} \stackrel{def}{\equiv} \|\rho f\|_{p(\cdot)},$$

normasına malik Banax fəzasını işarə edəcəyik.

Çəkili halda aşağıdakı mühüm nəticə doğrudur.

***Hökm 3.*** *Tutaq ki,* $1 \le p^- \le p^+ < +\infty$, $\rho(\cdot)$ *çəki funksiyasıdır,* $mes\{x \in [-\pi, \pi] : \rho(x) = 0\} = 0$ *və* $|\rho(x)|^{p(x)} \in L_1$. *Onda* $C_0^\infty[-\pi, \pi]$, *və eyni zamanda* $C[-\pi, \pi]$ $L_{p(\cdot),\rho(\cdot)}$ *-da doludur.*

Qarşıda bizə aşağıdakı fakt lazım olacaqdır.

***Hökm 4.*** *Tutaq ki,* $1 < p^- \le p^+ < +\infty$ *və* $p(\cdot) \in WL_\pi$. $\rho(\cdot)$ *çəki funksiyası aşağıdakı şəkildədir.*

$$\rho(t) \equiv \prod_{k=1}^{l} |t - t_k|^{\alpha_k}, \{t_k\}_{k=1}^{l} \subset [-\pi, \pi]. \tag{2}$$

*Əgər*

$$-\frac{1}{p(t_k)} < \alpha_k < \frac{1}{q(t_k)}, \quad k = \overline{1,l}; \tag{2}$$

*bərabərsizlikləri ödənərsə, onda* $\Gamma$ *operatoru* $L_{p(\cdot),\rho(\cdot)}$ *fəzasından* $L_{p(\cdot),\rho(\cdot)}$ *fəzasına məhdud təsir edir, burada* $\Gamma$ *Hilbert çüvirməsidir:*

$$\Gamma f = \int_{-\pi}^{\pi} \frac{f(y)dy}{y - x}.$$

Bu yarımfəsildə aşağıdakı teorem isbatt olunmuşdur.

***Teorem 5.*** *Tutaq ki,* $1 < p^- \le p^+ < +\infty$ *və* $p(\cdot) \in WL_\pi$. *Əgər (2), düsturu ilə təyin olunan* $\rho(\cdot)$ *çəki funksiyası (3) bərabərsizliklərini ödəyərsə, onda (1) eksponent sistemi çəkili* $L_{p(\cdot),\rho(\cdot)}$ fəzasında bazis təşkil edir.

**1.3-**də $L_{p(\cdot)}$ fəzasının alt fəzaları olaraq $H^+_{p(\cdot)}$ və ${}_mH^-_{p(\cdot)}$ Hardi siniflərinə baxılır. Bu alt fəzalarda eksponent sisteminin müəyyən hissələrinin bazisliyini öyrənəcəyik.

$H^+_{p(\cdot)}$ sinfindən olan funksiyaların vahid dairəyə daralmasını $L^+_{p(\cdot)}$ ilə işarə edək, daha doğrusu

$$L^+_{p(\cdot)} \equiv \left\{ f : \exists g \in H^+_{p(\cdot)},\ f \equiv g/_{\partial\omega} \right\}.$$

Qeyd edək ki, əgər $f \in H^+_{p(\cdot)}$, onda $\|f\|_{H^+_{p(\cdot)}} = \|f^+\|_{p(\cdot)}$, burada $f^+ = f/_{\partial\omega}$. Bu münasibətlərdən bilavasitə alınır ki, $H^+_{p(\cdot)}$ və $L^+_{p(\cdot)}$ fəzalarını eyniləşdirmək olar. Aşağıdakı teorem doğrudur

***Teorem 6.*** *Tutaq ki,* $1 < p^- \le p^+ < +\infty$ *və* $p \in WL_\pi$. *Onda* $\left\{e^{\mathrm{int}}\right\}_{n\in Z_+}$ *sistemi* $L^+_{p(\cdot)}$ *alt fəzasında* $L^+_{p(\cdot)}$ *(və ya* $H^+_{p(\cdot)}$*-da) bazis təşkil eiddir.*

Oxşar hökm ${}_mH^-_{p(\cdot)}$ fəzasına nəzərən də doğrudur. Fərz edək

$${}_mL^-_{p(\cdot)} \equiv \left\{ f : \exists g \in {}_mH^-_{p(\cdot)},\ f = g/_{\partial\omega} \right\}.$$

Doğrudur

***Teorem 7.*** *Tutaq ki,* $1 < p^- \le p^+ < +\infty$ *və* $p \in WL_\pi$. *Onda* $\left\{e^{-\mathrm{int}}\right\}_{n\ge m}$ *sistemi* ${}_mL^-_{p(\cdot)}$ *altfəzasında bazis təşkil edir.*

Oxşar nəticələr çəkili halda da alınmışdır.

Tutaq ki, $\nu^{\pm}(\cdot) \ge 0$ çəki funksiyasıdır. Aşağıdakı çəkili siniflərə baxaq

$$L^+_{p(\cdot),\nu^+} \equiv \left\{ f \in L^+_1 : \|f\|_{p(\cdot),\nu^+(\cdot)} < +\infty \right\},$$

$${}_mL^-_{p(\cdot),\nu^-} \equiv \left\{ f \in_m L^-_1 : \|f\|_{p(\cdot),\nu^-(\cdot)} < +\infty \right\}.$$

Aşağıdakı teorem doğrudur.

***Teorem 8.*** *Tutaq ki,* $p \in WL_{\pi}$, $1 < p^{-} \le p^{+} + \infty$, *və* $\rho(\cdot)$ *çəkisi (12) ifadəsi ilə təyin olunmuşdur. Əgər (13) bərabərsizlikləri ödənilərsə, onda* $\left\{e^{\mathrm{int}}\right\}_{n \in Z_{+}}$ $\left(\left\{e^{-\mathrm{int}}\right\}_{n \ge m}\right)$ *sistemi* $L^{+}_{p(\cdot),\rho(\cdot)}$ $\left({}_{m}L^{-}_{p(\cdot),\rho(\cdot)}\right)$, $1 < p < +\infty$ *alt fəzasında bazis təşkil edir.*

**1.4-də** isbat olunmuşdur ki, əgər $\left\{A(t)e^{\mathrm{int}};\ B(t)e^{-i(n+1)t}\right\}_{0}^{\infty}$ ikiqat eksponent sistemi $p(\cdot)$ dəyişən dərəcəli $L_{p(\cdot)}(-\pi, \pi)$ fəzasında bazis təşkil edirsə, onda o, bu fəzada $\left\{e^{\mathrm{int}}\right\}_{n \in Z}$ klassik eksponent sisteminə izomorfdur.

**1.5-də** ümumiləşmiş $L_{p(\cdot)}$ Lebeq fəzasında həyəcanlanmış eksponent sisteminin bazisliyi öyrənilir.

Mexanikanın konkret məsələlərinə tətbiqlə əlaqədar aşağıdakı kosinus və sinus sistemlərinin bazislik xassələri öyrənilir

$$\left\{\cos\sqrt{n^2 + \alpha}\, x\right\}_{n \ge 0} \cup \left\{\sin\sqrt{n^2 + \alpha}\, x\right\}_{n \ge 0}, \tag{4}$$

burada $\alpha \in C -$ kompleks parametrdir, müxtəlif funksional fəzalarda xüsusi elmi maraq doğurur.

$L_{p(\cdot)}$ fəzasında (4) sisteminin aşağıdakı ümumiləşmələrinə baxacağıq:

$$1 \cup \left\{e^{\pm i\sqrt[m]{P_m(n)}x}\right\}_{n \in N}, \tag{5}$$

burada $P_m(n) - m$ dərəcəli $\alpha_i \in C$, $i = \overline{0, m-1}$ kompleks əmsallı çoxhədlidir

$$P_m(n) \equiv a_m n^m + a_{m-1} n^{m-1} + \ldots + a_0,\ a_m \ne 0, a_m > 0.$$

$\sqrt[m]{z}$ kimi o budaq başa düşülür ki, hansı ki, $\sqrt[m]{1} = 1$.

Hər zaman fərz edəcəyik ki, aşağıdakı şərt ödənilir

$$k \ne l \text{ olduqda } P_m(k) \ne P_m(l) \text{ və } P_m(k) \ne 0,\ \forall k \in N. \tag{6}$$

Qeyd edək ki, (5) sisteminin $L_p$ fəzasında bazisliyi əvvəllər T.R.Muradovun işlərində öyrənilmişdir.

***Teorem 9***. *Tutaq ki,* $p^{-} > 1, p \in WL_{\pi}, a_m = 1$ *və*

$$-\frac{1}{p(\pi)} < a_{m-1} < \frac{1}{q(\pi)},$$

*bərabərsizliyi doğrudur. Əgər (6) şərti ödənərsə, onda (5) sistemi* $p(\cdot)$ *dəyişən dərəcəli* $L_{p(\cdot)}(-\pi,\pi)$ *fəzasında bazis təşkil edir.*

**Daha ümumi hal.** Aşağıdakı **e**ksponent sisteminə baxaq:

$$\left\{e^{i\lambda_n t}\right\}_{n\in Z}, \tag{7}$$

burada $\{\lambda_n\}\subset R-$ həqiqi ədədlər ardıcıllığıdır, $Z-$ tam ədədlərdir. $\{\lambda_n\}$ ardıcıllığı

$$\lambda_n = n-\alpha\, sign\, n + O\left(|n|^{-\beta}\right),\ |n|\to\infty, \tag{8}$$

asimptotikasına malik olduqda (7) sisteminin bazsilik xassələrini (bazislik, tamlıq, minimallıq) öyrənəcəyik, burada $\lambda,\beta\in R-$ müəyyən həqiqi parametrlərdir. Aşağıdakı teoremin doğruluğu isbat olunmuşdur.

***Teorem 22.*** *Tutaq ki, (8) asimptotikası doğrudur və*

$$-\frac{1}{2p(\pi)}<\alpha<\frac{1}{2q(\pi)},\ \beta>\frac{1}{\tilde{p}},$$

*bərabərsizliyi ödənilir, burada* $\tilde{p}=\min\{p^-;2\}$. *Onda (7) sisteminin* $L_{p(\cdot)}$ *fəzasında aşağıdakı xassələri ekvivalentdir:*

1. *(7) sistemi tamdır;*
2. *(7) sistemi minimaldır;*
3. *(7) sistemi* $\omega$ *-xətti asılı deyil;*
4. *(7) sistemi* $\left\{e^{int}\right\}_{n\in N}$ *sisteminə izomorf bazisdir;*
5. $i\neq j$ *olduqda* $\lambda_i\neq\lambda_j$.

**1.6-da** ümumiləşmiş çəkili Lebeq fəzasında vahidə malik həyəcanlanmış eksponent sisteminin bazisliyi öyrənilir.

**Xətti hal.** Vahidə malik aşağıdakı eksponent sisteminə baxaq

$$1\bigcup\left\{e^{i\omega_n(t)}\right\}_{n\neq 0}, \tag{9}$$

burada $\omega_n(t)$

$$\omega_n(t)=\gamma_n(t)+\underline{\underline{O}}\left(|n|^{-\nu}\right),\ |n|\to\infty,$$

asimptotikasına malikdir, belə ki, $\gamma_n(\cdot)$ baş hissə

$$\gamma_n(t)\equiv(n-\alpha\, sign\, n)t-\beta\, sign\, n\, sign\, t,$$

ifadəsi ilə təyin olunmuşdur, $\alpha,\beta\in R-$ həqiqi parametrlərdir.

Bu yarımfəsildə (9) sisteminin $\rho:[-\pi,\pi]\to R_+\equiv(0,+\infty)$ çəkisinə malik ümumiləşmiş çəkili $L_{p(\cdot),\rho}$ Lebeq fəzasında bazisliyinin isbatı üçün iki üsul təklif olunur.

Qarşıda hər yerdə fərz edəcəyik ki, aşağıdakı daxil olmalar doğrudur

$$\rho(\cdot)\in L_{p(\cdot)} \ \ \& \ \ \rho^{-1}(\cdot)\in L_{q(\cdot)}.$$

**I üsul.** Установления аналога утверждения Левинсона относительно системы

$$\left\{e^{i\lambda_n t}\right\}_{n\in Z}, \tag{10}$$

а в последующем применение Леммы 2 §1.1.

**II üsul**. $\left\{e^{i\omega_n(t)}\right\}_{n\in Z}$ sisteminə biortoqonal olan sistemin qurulması və $L_{p(\cdot),\rho}$ fəzasından olan hər bir funksiyanın biortoqonal ayrılışının yığılmasının isbatı.

Qeyd etmək lazımdır ki, I üsul yalnız (10) şəklində olan sistemə uyğundur, II üsul daha ümumidir. Ona görə də biz (9) sisteminin $L_{p(\cdot),\rho}$ fəzasında isbatı üçün hər iki üsulu verəcəyik.

Aşağıdakı teorem isbat olunmuşdur.

***Teorem 11.*** *Tutaq ki,* $p\in WL_\pi$, $p^->1$ *və (2) çəkisi (3) şərtini ödəyir.* $1\bigcup\left\{e^{i(n-\alpha\, sign\, n)t}\right\}_{n\neq 0}$ *sistemi* $L_{p(\cdot),\rho}$ *fəzasında yalnız və yalnız*

$$-\frac{1}{2p(\pi)}<\alpha<\frac{1}{2q(\pi)},$$

*bərabərsizliyi ödəndikdə bazis təşkil edir. Bu halda* $\alpha\geq-\dfrac{1}{2p(\pi)}$ *olduqda* $L_{p(\cdot),\rho}$ *fəzasında tam,* $\alpha<\dfrac{1}{2q(\pi)}$ *olduqda isə bu fəzada minimaldır.*

**Hissə-hissə xətti hal.** Bu bənddə daha çətin hala, eksponent sistem məhz

$$1\bigcup\left\{e^{i(nt+\lambda_n(t))}\right\}_{n\neq 0}, \tag{11}$$

şəkildə olduğu hala baxacağıq, burada $\lambda_n(t)\equiv -sign\, n(\alpha t+\beta signt)$, hissə-hissə xətti həyəcanlanmadır.

Beləliklə, aşağıdakı teorem doğrudur.

***Teorem 12.*** *Tutaq ki,* $p \in WL_{\pi}$, $p^{-} > 1$ *və (2) çəkisi (3) şərtlərini ödəyir və* $\{t_k\}_{k=\overline{1,r}} \subset \{(-\pi,0) \cup (0,\pi)\}$. *Əgər*

$$-\frac{1}{2q(0)} < \frac{\beta}{\pi} < \frac{1}{2p(0)},$$

*onda (11) sistemi yalnız və yalnız* $-\frac{1}{2p(\pi)} < \alpha + \frac{\beta}{\pi} < \frac{1}{2q(\pi)}$ *bərabərsizliyi ödəndikdə* $L_{p(\cdot),\rho}$ *fəzasında bazis təşkil edir.*

**İkinci fəsildə** kəsilən difernsial operatorların məxsusi funksiyalar çoxluğu ola biləcək hissə-hissə kəsilməz fazaya malik eksponent sisteminə baxılır. Müəyəyn şərtlər daxilində bu sistemin dəyişən dərəcəli Lebeq fəzalarında bazisliyi isbat olunur.

**2.1-də** əsas fərziyyələr və köməkçi faktlar daxil edilir.

Aşağıdakı eksponent sisteminə baxılır

$$\left\{e^{i(nt-\alpha(t)sign\, n)}\right\}_{n\in Z},$$

burada $\alpha(t) - [-\pi;\pi]$ parçasında hissə-hissə kəsilməz funksiyadır.

**2.2-də** ümumiləşmiş Hardi siniflərində hissə-hissə kəsilməz əmsallara malik bircins Riman məsələsi öyrənilir.

**2.3-də** hissə-hissə kəsilməz əmsala malik qeyri-bircins Riman məsələsinə baxılır.

Əvvəlki yarımfəsildə alınmış nəticələrdən istifadə etməklə **2.4-də** $L_{p(\cdot)}$ fəzasında hissə-hissə kəsilməz fazaya malik eksponent sistemin bazisliyi isbat olunur.

Aşağıdakı sistemə baxaq

$$\left\{e^{i(nt-\alpha(t)sign\, n)}\right\}_{n\in Z}, \tag{12}$$

burada $\alpha : [-\pi,\pi] \to C -$ müəyyən hissə-hissə kəsilməz funksiyadır. Aşağıdakı teorem isbat olunmuşdur.

***Teorem 13.*** *Tutaq ki,* $p \in WL_{\pi}$, $p^{-} > 1$, $\alpha(t)$ *funksiyası aşağıdakı şərtləri ödəyir*

(a) $\alpha(t)$ $[-\pi,\pi]$*-da hissə-hissə Hölder funksiyadır,* $\{s_k\}_1^r : -\pi = s_0 < s_1 < \ldots < s_r < s_{r+1} = \pi -$ *onun* $(-\pi,\pi)$*-da kəsilmə nöqtələridir. Tutaq ki,* $\{h_k\}_1^r$ :

$$h_k = \alpha(s_k + 0) - \alpha(s_k - 0),\ k = \overline{1,r};$$

$\alpha(t)$ *funksiyasını* $s_k$ *nöqtələrində sıçrayışlarıdır və* $h_0 = \dfrac{\alpha(-\pi) - \alpha(\pi)}{\pi}$.

(b) $$\left\{\frac{h_k}{\pi} - \frac{1}{p(s_k)} : k = \overline{0,r}\right\} \cap Z = \varnothing .$$

*Aşağıdakı münasibətdən*

$$-\frac{1}{q(s_k)} < \frac{h_k}{\pi} + n_{k-1} - n_k < \frac{1}{p(s_k)},\ n_0 = 0,\ k = \overline{1,r},$$

$\{n_k\}_1^r \subset Z$ *ədədlərini təyin edək. Fərz edək ki,* $\omega_\pi = h_0 + n_r$.

*Əgər* $-\dfrac{1}{q(s_k)} < \dfrac{h_k}{\pi} < \dfrac{1}{p(s_k)},\ k = \overline{0,r}$, *bərabərsizlikləri ödənərsə, onda (12) eksponent sistemi* $L_{p(\cdot)}$ *fəzasında bazis təşkil edir.*

**2.5-də** faza müəyyən asimptotikaya malik olduqda həyəcanlanmış eksponent sisteminə baxılır.

Aşağıdakı

$$\left\{e^{i\lambda_n(t)}\right\}_{n \in Z}, \tag{13}$$

eksponent sisteminə baxaq, burada $\lambda_n(t)$

$$n \to \infty, \qquad \lambda_n(t) = \mu_n(t) + \beta_n(t),$$

asimptotikasına malikdir və $\mu_n(t) = (n - \alpha(t)\operatorname{sign} n)t,\ n \in Z$.

Aşağıdakı şərtin ödəndiyini fərz edəcəyik.

*(c)* $\beta_n(\cdot)$ *funksiyaları*

$$\beta_n(t) = O\left(\frac{1}{n^{\gamma_k}}\right),\ t \in (t_k, t_{k+1}),\ k = \overline{0,r};\ \{\gamma_k\}_1^r \subset (0, +\infty),$$

münasibətini ödəyir. Aşağıdakı teorem isbat olunmuşdur.

***Teorem 14.*** *Tutaq ki,* $p \in WL_\pi$, $p^{-1} > 1$, *və* $n \to \infty$ olduqda, $\lambda_n(t) = \mu_n(t) + \beta_n(t)$ asimptotik düsturu doğrudur, burada $\mu_n(t) = (n - \alpha(t)\operatorname{sign} n)t,\ n \in Z$, *hansı ki,* $\alpha(t)$ *funksiyası 2.4* *yarımfəslindəki Teorem 13-ün bütün şərtlərini ödəyir və* $\beta_n(t)$ *funksiyasına nəzərən aşağıdakı münasibət doğrudur*

$$\beta_n(t) = O\left(\frac{1}{n^{\gamma_k}}\right),\ t \in (t_k, t_{k+1}),\ k = \overline{0,r};\ \{\gamma_k\}_1^r \subset (0, +\infty).$$

*Fərz edək ki, aşağıdakı bərabərsizlik doğrudur*

$$-\frac{1}{q(\pi)} < \omega_\pi < \frac{1}{p(\pi)},\ \gamma > \frac{1}{\widetilde{p}},$$

*burada* $\gamma = \min_k \gamma_k$ , $\widetilde{p} = \min\{p^-; 2\}$ *və* $\omega_\pi$ *kəmiyyəti (b) münasibətindən təyin olunur. Onda (13) sisteminə nəzərən* $L_{p(\cdot)}$ *fəzasında aşağıdakı xassələr ekvivalentdir.*

1) *tamdır;*
2) *minimaldır;*
3) $\omega$ *-xətti asılı deyil;*
4) *o* $\{e^{\mathrm{int}}\}_{n \in Z}$ *sisteminə izomorf bazis təşkil edir;*
5) $i \neq j$ *olduqda* $\lambda_i \neq \lambda_j$.

**2.6-də** Banax fəzalarında operator əmsallı ikiqat sistemdən ibarət bazislərə baxılır. Bu sistemlərin bazisliyi və operator tənliyin həllolunalığı arasında əlaqə qurulmuşdur. Bazislik üçün zəruri şərt alınır. Alınan nəticələr konkret misallara tətbiq olunur.

Beləlikl, tutaq ki, $\{x_n^+; x_n^-\}_{n \in N} \subset X$ müəyyən ikiqat sistemdir. *Əgər* $\forall x \in X$ *üçün* $\exists!\{\lambda_n^\pm\}_{n \in N} \subset C$: $x = \sum_{n=1}^{\infty} \lambda_n^+ x_n^+ + \sum_{n=1}^{\infty} \lambda_n^- x_n^-$, *onda bu sistem* $X$ *fəzasında ikiqat bazis adlanır.*

$\{x_n^\pm\}_{n \in N}$ sisteminin $X$ fəzasında xətti örtüyünün qapanmasını $X^\pm$ ilə işarə edək. Digər halda bu tərif $\{x_n^\pm\}_{n \in N}$ sisteminin $X^\pm$ fəzasında bazis təçkil etdiyi, $X^+$ və $X^-$ altfəzaları $X$-da tamamlanma olduğu və aşağıdakı düz cəmə ayrılışın doğru olduğu mənasını verir

$$X = X^+ \dot{+} X^-. \tag{14}$$

Tutaq ki, $X$ $\{x_n^+; x_n^-\}_{n \in N}$ bazisinə malik Banax fəzasıdır və $T^\pm \in L(X)$ müəyyən avtomorfizmdir. Fərz edək ki, $\{T^+ x_n^+; T^- x_n^-\}_{n \in N}$ sistemi həmçinin $X$ fəzasında bazis təşkil edir. Beləliklə, $\forall y \in X$ üçün

$$T^+x^+ + T^-x^- = y \quad , \tag{15}$$
tənliyi $X^+ \times X^-$ fəzasında həll olunandır, daha doğrusu $\exists\left(x^+; x^-\right) \in X^+ \times X^-$, (15) münasibəti ödənilir. Tutaq ki, $X_0 \subset X$ müğyyən çoxobrazlıdır. Fərz edək ki, elə $A^\pm; B^\pm \in L(X)$ avtomorfizmi və $S: X_0 \to X$ xətti operatoru var ki, $\forall y \in X_0$ üçün (15) məsələsinin həlli
$$x^\pm = A^\pm y + B^\pm Sy , \tag{16}$$
Düsturu ilə ifadə olunur. Beləliklə, bu yarımfəsildə aşağıdakı teorem isbat olunmuşdur.

***Teorem 15.*** *Tutaq ki, $X$ Banax fəzası (14) düz ayrılışına malikdir və $\left\{x_n^\pm\right\}_{n \in N}$ sistemi $X^\pm$ fəzasında bazis təşkil eidr. $T^\pm; A^\pm; B^\pm \in L(X)$ avtomorfizmdir və $S: X_0 \to X$ xətti operatordur hansı ki, (15) tənliyinin həllinə nəzərən (16) düsturu doğrudur, burada $X_0 \subset X -$ müəyyən çoxobrazlıdır. Onda əgər $\left\{T^+x_n^+; T^-x_n^-\right\}_{n \in N}$ sistemi $X$ fəzasında bazis təşkil edərsə, onda $S$ operatoru $X_0$ fəzasında məhduddur.*

**Üçüncü fəsildə** ümumilikdə müxtəlif riyazi strukturlarda cırlaşmayan sistemin doğurduğu əmsallar fəzası anlayışına həsr olunmuşdur.

Müəyyən xassələr malik xətti metrik fəzaya baxılmışdır. Cırlaşmayan sistem anlayışı daxil edilmişdir. İsbat olunmuşdur ki, belə sistemlər kanonik bazisli tam metrik əmsallar fəzasına malikdir Əmsal operatoru dilində bazislik kriteriyası verilmişdir.

Bu fəsildə müəyyən bixətti inikasın doğurduğu ümumiləşmiş $b$-bazis anlayışının bir konkret realizasiyası verilmişdir. Eləcə də Hilbert tenzor hasilində elementlərin tam sistem üzrə $t-$sıraya ayrılması haqqında bir əsas nəticə verilmişdir.

**3.1** -də zəruri işarələmələr və anlayışlar, eləcə də bixətti inikasın doğurduğu approksimativ anlayışlar daxil edilmişdir.

**3.1.1.** ***$b$-inikas. $b$-örtük. $b$-tamlıq. $b$-minimallıq. $b$-invariantlıq.*** Tutaq ki, $K$ meydanı üzərində $X, Y, Z -$xətti fəzalardır.

*Əgər* $\forall x \in X$ *və* $\forall y \in Y$ *üçün* $b(x,\cdot): Y \to Z$ *və* $b(\cdot, y): X \times Y \to Z$ *inikasları uyğun olaraq* $Y$ *və* $X$*-da xətti inikaslardırsa, onda* $b: X \times Y \to Z$ *inikası bixətti inikasdır.*

Tutaq ki, $X, Y, Z -$ uyğun $\|\cdot\|_x$, $\|\cdot\|_y$ və $\|\cdot\|_z$ normalı $B$-fəzalardır. Əgər

$$m\|x\|_x \|y\|_y \le \|b(x,y)\|_z \le M\|x\|_x \|y\|_y, \ \forall x \in X, \ \forall y \in Y,$$

olarsa, onda $b: X \times Y \to Z$ bixətti inikası $b$-inikası adlanır, burada $m, M > 0 -$ sabitlərdir.

Sadəlik üçün $b(x,y)$ $b$-inikasını $xy \equiv b(x,y)$ ilə işarə edəcəyik. Tutaq ki, $M \subset Y$ müəyyən çoxluqdur. $\sum x_i m_i$ şəklində olan bütün mümkün sonlu xətti kombinasiyaları $M$ çoxluğunun $b$-örtüyü adlandıracağıq və $L^b[M]$ kimi işarə edəcəyik; burada $x_i \in X$, $m_i \in M$. $Z$ çoxluğunda $L^b[M]$ örtüyünün qapanmasını $\overline{L^b[M]}$ ilə işarə edəcəyik..

*Əgər* $\overline{L^b[\{y_n\}_{n\in N}]} = Z$ *olarsa, onda* $\{y_n\}_{n\in N} \subset Y$ *sistemi* $b$*-tam sistem adlanır. Əgər* $\forall x \in X$*,* $x \ne 0$ *üçün* $xy_k \notin \overline{L^b[\{y_n\}_{n\ne k}]}$, $\forall k \in N$ *doğru olarsa, onda* $\{y_n\}_{n\in N}$ *sistemi* $b$*-minimal sistem adlanır.*

*Əgər* $\sum_n x_n y_n = 0$ *bərabərliyindən* $\sum_n f(y_n)x_n = 0$*,* $\forall f \in Y^*$ *ifadəsinin doğruluğu alınarsa, onda* $(X;Y;Z)$ *üçlüyü* $b_Y$*-invariant adlanır.*

*Tamamilə analoji olaraq* $b$*-asılı olmamaq anlayışı müəyyən edilir. Məhz əgər hər hansı bir sonlu* $\{x_n\}$ *seçimi üçün* $\sum_n x_n y_n = 0$ *bərabərliyi yalnız* $x_n = 0, \forall n$ *üçün doğru olduqda* $\{y_n\} \subset Y$ *sistemi* $b$*-asılı olmayan sistem adlanır.*

*Əgər* $\forall x \in X$*,* $\forall n, k \in N$ *üçün* $T_n(xy_k) = \delta_{nk} x$ *doğru olarsa, onda* $\{y_n\}_{n\in N} \subset Y$ *sistemi* $\{T_n\}_{n\in N} \subset L(Z;X)$ *sisteminə* $b$*-biortoqonal sistem adlanır.*

*Nəhayət,* $b$*-bazis anlayışını daxil edək.*

